ƏKRƏM CƏFƏR

# ...Yandım avazeyi eşqinlə sənin

ÇAŞIOĞLU
2010

## FÜZULİYƏ

Beş yüz ildir bir misal olmuş bizə
Misilsiz dahi Füzulinin adı.
Beş yüz ildir bir xəyal olmuş bizə
Şerin Allahı Füzulinin adı.

Beş yüz il avazeyi-eşqinlə biz
İnlədik, güldük, sevindik, ağladıq.
Beş yüz il həm dərd, həm şövqünlə biz
Gah tikan dərdik, gah gül bağladıq.

Bir gülüstandır ki, Divanın sənin,
Hər qəzəl göz yaşlı bir gül dəstəsi.
Bir neyistandır ki, Divanın sənin,
Hər neyin köksündə hicran bəstəsi.

Sinəmizdir Bisütun, sən Kuhkən
Onda sən öz eşqini nəqş eylədin.
Leyli xalqındır, onun Məcnunu sən
Sən ona öz qəlbini bəxş eylədin.

Ey böyük Məcnun, bu gün dürlər saçıb
Göylərə yazmaqda xalqın ismini.
Gəldi bir dövran ki, ağuşun açıb
Bağrına basmaqdadır Leylin səni.

Ey Füzuli, sənətin, şeriyyətin
Şerimizdir, şerimizdir, şerimiz!
Ey Füzuli, şöhrətin, milliyyətin
Fəxrimizdir, fəxrimizdir, fəxrimiz!

***ƏKRƏM CƏFƏR***

## TƏHZİL

Ya rəb, səfayi-eşq ilə qıl  aşina bizi
Bir dəm səfayi-eşqdən etmə cüda bizi.
Çox eylə öz inayətin əhli-keyfə sən
Yəni ki, çox səfalərə qıl mübtəla bizi.
Olduqca biz, az etmə səfanı nəsib bizə
Biz istərik səfanı, çün istər səfa bizi.
Sevdamızı səfayi-məhəbbətdə qıl mətin
Bədxah tən edib, deməsin bivəfa bizi.
Biz harda, dərdü-qəmlə kasıblıq bəlası nə?
Qıl vasili-səadəti-zövqü qəna bizi.
Öylə qəvi elə bizi sən vüslətində kim
Vəslinə daima yetirə hər səba bizi.
Məğrur qılma sən bizi bir an Füzuli tək
Ya rəb, mükəddər eyləməsin heç cəfa bizi.

***ƏKRƏM CƏFƏR***